ABACUS
ABACUS AUDIT AND CONSULTING

Abacus Audit and Consulting LLC
Zafaran Park (Business Center)
2th floor, 203 room
AZ1078 Masud Alizade str,138
info@abacusaudit.az
Rüfət Zeynalov (Auditor)
rufat.zeynalov@abacusaudit.az
tel: +994 55 213 47 37

## MÜSTƏQİL AUDİTORUN HESABATI

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Rəhbərliyinə

**Rəy № PBcYBJOFTY**

Biz, "Abacus Audit and Consulting" MMC olaraq (Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 03 iyun 2022-ci il tarixli AT/135 saylı icazə verilib) Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və onun törəmə müəssisəsinin (Birlikdə "Qrup" adlandırılacaq) 31 dekabr 2025-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş mənfəət və ya zərər, digər məcmu gəlir, konsolidə edilmiş kapitalda dəyişikliklər və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla konsolidə edilmiş maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Tətbiq edilən mühasibat uçotu qaydalarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) və Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (MUBS) uyğunluğunun dəyərləndirilməsini apararaq cari tətbiq olunan uçot siyasətinə uyğun olan yeni MHBS və MUBS üzrə tövsiyyələrin verilməsini təmin etdik.

Bizim rəyimizə görə əlavə edilmiş konsolidə edilmiş maliyyə hesabatları əksər əhəmiyyətli aspektlərdə Qrupun 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini, həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Əsassən Mühasibat Uçotunun Aparılması Qaydalarına" uyğun olaraq düzgün əks etdirir.

**Rəy üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "Konsolidə edilmiş Maliyyə Hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Qrupdan müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Digər məsələlər**

31 dekabr 2024-cü il tarixinə başa çatmış il üzrə Qrupun Konsolidə edilmiş Maliyyə Hesabatları 13 avaqust 2025-ci il tarixində həmin Konsolidə edilmiş Maliyyə Hesabatlarına dair müsbət Rəy bildirmiş digər kənar auditor tərəfindən yoxlanılmışdır.

**Konsolidə edilmiş Maliyyə Hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, habelə saxtakarlıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Rəhbərlik Qrupun fəaliyyətinin fasiləsiz davam etdirilməsinin qiymətləndirilməsi və fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına, habelə fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən Konsolidə edilmiş Maliyyə Hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır

Rəhbərlik Qrupun Konsolidə edilmiş Maliyyə Hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır

**Konsolidə edilmiş Maliyyə Hesabatlarının auditi üzrə auditorun məsuliyyəti**

Bizim məqsədimiz ümumiyyətlə Konsolidə edilmiş Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı Konsolidə edilmiş Maliyyə Hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

• Konsolidə edilmiş Maliyyə Hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.

• Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.

• Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.

• Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud

olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda Konsolidə edilmiş Maliyyə Hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.

• Məlumatların açıqlanması da daxil olmaqla Konsolidə edilmiş Maliyyə Hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz Qrupun idarə olunmasına cavabdeh şəxslərin nəzərinə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə müəyyən etdiyimiz hər hansı əhəmiyyətli çatışmazlıqları çatdırırıq.

Biz həmçinin Qrupun idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik. Qrupun idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə Konsolidə edilmiş Maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**"Abacus Audit and Consulting"**

**MMC-nin auditoru** **Rüfət Zeynalov**

**20 may 2026-cı il**

**Bakı şəhəri, Azərbycan Respublikası**

"Maliyyə Hesabatlarının Beynəlxalq
Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na
1 nömrəli əlavə.

# Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi PHŞ
# 31 dekabr 2025-ci il tarixinə Konsolidə edilmiş Maliyyə vəziyyəti haqqında hesabat

Ölçü vahidi: manat

| Bölmə/ Maddə №-si | Bölmə/ Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə | | Əvvəlki dövr | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | AKTİVLƏR | | | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | | | |
| 10 | Qeyri-maddi aktivlər | 1 | 4 595 079,69 | | 3 698 186,47 | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 1 | 56 943 057,17 | | 39 580 095,65 | |
| 12 | İnvestisiya mülkiyyəti | | | | | |
| 13 | Bioloji aktivlər | | | | | |
| 14 | Təbii sərvətlər | | | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | 2 | 240 176,00 | | 390 176,00 | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | 3 | 248 536,36 | | 485 936,36 | |
| | CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | | **62 026 849,22** | | **44 154 394,48** |
| 2 | **Qısamüddətli aktivlər** | | | | | |
| 20 | Ehtiyatlar | 4 | 211 377,82 | | 375 086,77 | |
| 21 | Qısamüddətli debitor borcları | 5 | 63 309,14 | | 47 670,10 | |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 257 950,35 | | 273 772,07 | |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | | | |
| 24 | Sair qısamüddətli aktivlər | 7 | 588 779,94 | | 610 916,16 | |
| | CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | | **1 121 417,25** | | **1 307 445,10** |
| | CƏMİ AKTİVLƏR | | | **63 148 266,47** | | **45 461 839,58** |

| | KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | | | | |
|---|---|---|---|---|---|---|
| 3 | Kapital | | | | | |
| 30 | Ödənilmiş nominal(nizamnamə) kapital | 8 | 10 126 117,68 | | 10 126 117,68 | |
| 31 | Emissiya gəliri | | | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | | | |
| 33 | Kapital ehtiyatları | 9 | 19 190 081,44 | | 15 899 989,30 | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 10 | 22 699 431,22 | | 7 275 032,31 | |
| | CƏMİ KAPİTAL | | | **52 015 630,34** | | **33 301 139,29** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | | | |
| | CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | | | | |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | | | |
| 53 | Qısamüddətli kreditor borcları | 11 | 156 181,96 | | 81 483,23 | |
| 54 | Sair qısamüddətli öhdəliklər | 12 | 10 976 454,17 | | 12 079 217,06 | |
| | CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | | **11 132 636,13** | | **12 160 700,29** |
| | CƏMİ ÖHDƏLİKLƏR | | | **11 132 636,13** | | **12 160 700,29** |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | | **63 148 266,47** | | **45 461 839,58** |

"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na
2 nömrəli əlavə.

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi PHŞ
## 31 dekabr 2025-ci il tarixinə Konsolidə edilmiş Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat

**Ölçü vahidi: manat**

| *Bölmə (maddə)və hesab №-si* | *Göstəricilərin adı* | *Uçot siyasəti və izahlı qeydlərin №-si* | *Hesabat dövrü üzrə* | *Əvvəlki dövr üzrə* |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 60 | Əsas əməliyyat gəlirləri | | | |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | 13 | 35 779 117,64 | 20 365 630,25 |
| | Bitməmiş istehsalat və hazır məhsul ehtiyatlarındakı artımlar (azalmalar) | | | |
| | Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | | |
| | İstifadə edilmiş material ehtiyatları | 14 | 725 246,30 | 682 351,78 |
| | İşçi heyəti üzrə xərclər | 15 | 12 542 372,53 | 13 735 861,12 |
| | Amortizasiya xərcləri | 16 | 1 242 293,87 | 959 360,98 |
| | Digər əməliyyat xərcləri | 17 | 5 844 806,03 | 4 986 019,16 |
| 73 və 61 | Sair əməliyyat xərcləri | 18 | | 2 037,21 |
| **O cümlədən** | Xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər | | | |
| | Xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər istisna olmaqla sair əməliyyat xərcləri | | | |
| **62 və 74** | Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | | |
| | Əməliyyat mənfəəti (zərəri) | | | |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | Vergiqoymadan əvvəl mənfəət (zərər) | | | |
| 90 | Mənfəət vergisi | | | |
| 341 | Hesabat dövründə xalis mənfəət (zərər) | 19 | 15 424 398,91 | 0,00 |

| | | | | |
|---|---|---|---|---|
| | O cümlədən | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |
| | Digər məcmu gəlir | 20 | 3 290 092,14 | 2 383 866,37 |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | 21 | **18 714 491,05** | 2 383 866,37 |
| | O cümlədən | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |

"Maliyyə Hesabatlarının Beynəlxalq
Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na
3 nömrəli əlavə.

# Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi PHŞ
## 31 dekabr 2025-ci il tarixinə Konsolidə edilmiş Kapitalda dəyişikliklər haqqında hesabat

**Ölçü vahidi: manat**

| Uçot siyasəti və izahlı qeydlərin №-si | Uçot siyasəti və izahlı qeydlərin №si | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | | | | Bölüşdürülməmiş iş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yenidən qiymətləndirilmə | Məzənnə fərqləri üzrə | Qanunvericilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | 22 | 10 126 117,68 | | | | | | | 13 516 122,93 | 7 275 032,31 | 30 917 272,92 |
| Əvvəlki hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | | | | | | | | | | | |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | 23 | | | | | | | | | 0,00 | 0,00 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | 24 | | | | | | | | 2 383 866,37 | | 2 383 866,37 |
| **Əvvəlki hesabatdövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | | | |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | 25 | 10 126 117,68 | | | | | | | 15 899 989,30 | 7 275 032,31 | 33 301 139,29 |
| Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | | | | | | | | | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 26 | | | | | | | | | 15 424 398,91 | 15 424 398,91 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | 27 | | | | | | | | 3 290 092,14 | | 3 290 092,14 |
| Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi | | | | | | | | | | | |
| Hesabat dövrünün sonuna qalıq | 28 | 10 126 117,68 | | | | | | | 19 190 081,44 | 22 699 431,22 | 52 015 630,34 |

"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na 4 nömrəli əlavə.

# Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi PHŞ
## 31 dekabr 2025-ci il tarixinə Konsolidə edilmiş Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

Ölçü vahidi: manat

| | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| Malların satışından və xidmətlərin göstərilməsindəndaxilolmalar | | | |
| Royaltilər, yığımlar və komisyon haqları üzrə daxilolmalar | | | |
| Digər gəlirlərlərdən daxilolmalar | 29 | 207 336,06 | 160 018,03 |
| Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar | | **207 336,06** | **160 018,03** |
| Mallar və xidmətlərə görə xaricolmalar | 30 | 5 914 692,20 | 6 256 821,89 |
| İşçilərin əmək haqqı və mükafatlandırılması ilə əlaqədar ödənişlər | 31 | 12 742 133,78 | 13 898 153,85 |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | | |
| Digər vergilərə görə xaricolmalar | | | |
| Əməliyyat fəaliyyətindən yaranan məzənnə fərqi üzrə xaricolmalar | 32 | 0,00 | 2 037,21 |
| Digər ödənişlərə görə xaricolmalar | 33 | 356 696,33 | 452 982,75 |
| Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar | | **19 013 522,31** | **20 609 995,70** |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | **-18 806 186,25** | **-20 449 977,67** |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | 34 | 0,00 | 0,00 |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | 35 | 3 735 102,60 | 3 301 652,70 |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla); | | | |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla); | 36 | 0,00 | 0,00 |
| digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları; | 37 | 191583,00 | 261931,40 |
| Banka yerləşdirilmiş depozitə görə pul vəsaitlərinin xaricolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri; | | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları. | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | -3 543 519,60 | -3 039 721,30 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsində pul vəsaitlərinin xaricolmaları | | | |

| | | | |
|---|---|---|---|
| təminatsiz istiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları; | | | |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | 38 | 22 543 115,67 | 22 094 535,43 |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | 39 | 209 231,54 | 93 184,21 |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | 22 333 884,13 | 22 001 351,22 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | 40 | -15 821,72 | -1 488 347,75 |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | 41 | 273 772,07 | 1 762 119,82 |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | -15 821,72 | -1 488 347,75 |
| xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | 42 | 257 950,35 | 273 772,07 |